# Yolumuz Tərtər boyuncadır...




❐ ***Şeirdə deyildiyi kimi Tərtərin "lala" vaxtıdır. Bərəkətli Qarabağ düzlərini üzük qaşı kimi dövrəyə alan dağların başı qarlıdır. Aşağıda – aran rayonlarında isə son günlər havalar çox isti keçir. Görünür, elə buna görə də Tərtərin yaxası boyu uzanan geniş asfalt yolla üzüyuxarı şütüyən maşınların sayı artıb – gəlməli, görməli, səfalı yerlər "gəl-gəl" deyir.***

Adama elə gəlir ki, Murova əl uzatsaq çatar. Ancaq arada gör nə qədər məsafə var – sıx meşələr, sıldırım dağlar, çaylar... Hiddət, əsəb və nifrətdən alışıb yanan ürəyimizə təsəlli də var: Murovdan əsən dağ küləyi, bir də Kəlbəcərdən, İstisudan, Ceyran bulağından... axıb gələn Tərtər. Son illər, son illər deyəndə ki, o dağlara gedən yollar bağlanandan, doğma ata-baba torpaqlarımız işğal ediləndən sonra gündə yüz dəfə Tərtərə yolum düşsə də, könlümdən bax belə sözə sığmayan kövrək duyğular keçir.



Ancaq bu kövrək duyğuların ömrü uzun çəkmir. Bir az bundan əvvəl Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun nikbin, daha çox sabaha hesablanmış söhbətləri, yerlərdə, daha çox da cəbhə xəttində yerləşən kəndlərdə gördüklərim, əli avtomatlı, qıvraq görkəmli cəsur əsgərlərimizlə, zabitlərimizlə görüşəndə bir daha əmin olursan ki, qələbə günü uzaqda deyil. Belə möhkəm inam və ümidin yüksək əhval-ruhiyyənin arxasında isə heç şübhəsiz ki, ölkə Prezidenti İlham Əliyevin apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət, ardıcıl və qətiyyətli diplomatik səyləri dayanır.

Cəbhə xəttində yerləşən Qarağacı kənd sakini Fərman Qurbanovun dediklərini xatırlayıram:

– Gördüyünüz kimi, əkin sahələri bir güllə məsafəsindədir. Ancaq bu, bizi qətiyyən qorxutmur. Hamı iş üstündə, əkində-biçindədir. Düzdür, qarşı tərəf öz namərd və xain xislətindən əl çəkmir. Demək olar ki, hər gün atəşkəs rejiminin tələbləri pozulur. Bununla belə, əlimiz işdən soyumur. Yaxşı bilirik ki, Azərbaycan Ordusunun əsgərləri hər dəfə onlara layiqli cavab verir. Digər tərəfdən, axı bizim gün-güzəranımız, dolanışığımız bu torpaqdandır. Çörəyimizi də, ətimizi də, yağımızı da, meyvəmizi də özümüz istehsal edirik. Artığını isə bazara çıxardırıq. Demək istəyirəm ki, necə yaşamağımız necə işləməyimizdən asılıdır. Təsadüfi deyil ki, əkin sahələrini ildən-ilə artırır, məhsuldarlığı isə yüksəldirik. Elə taxılçılığı götürək. Onu da əlavə edim ki, bizim əkin sahələri Qarağacı, Əskipara, Şıxarx kəndlərinin cəbhə xəttinə lap yaxın olan ərazilərində yerləşir. Ötən il bizim fermer təsərrüfatı 557 hektarda taxıl yetişdirmiş, zəmilərdən 1070 ton məhsul götürmüşdür. Bu il əkin sahələrini genişləndirərək 820 hektara çatdırmışıq. Hədəfimiz isə belədir: hər hektarın məhsuldarlığını 35 sentnerə çatdırmalı.

İsmayılbəyli kəndinə Mirzə Cümşüdovun sorağı ilə gəlmişik. Bilirdik ki, neçə ildir ardıcıl yüksək barama məhsulu əldə edir. İlkin nəticələr onu göstərir ki, bu il üçün nəzərdə tutulmuş hədəflər layiqincə yerinə yetiriləcəkdir. Söhbət zamanı qabaqcıl kümçü dedi:



– Ölkə Prezidenti İlham Əliyevin strateji sahə olan pambıqçılığa, baramaçılığa, tütünçülüyə, fındıqçılığa göstərdiyi diqqət və qayğı, bu istiqamətdə qəbul olunmuş dövlət proqramları biz kənd əməkçilərinə qol-qanad, maraq və stimul vermişdir. Açığını deyim ki, bizdə baramaçılıq demək olar ki, tamam unudulmuşdu. Ona görə ki, hazır məhsula yiyə duran yox idi. Zəhmətimiz əlimizdə qalırdı. Son illər isə vəziyyət büsbütün dəyişib. Biz ötən il ailəlikcə 2 qutu barama toxumu götürmüşdük. 113 kiloqram barama təhvil verdik. Düzdür, bu nəticədən o qədər də razı qalmadıq. Ona görə ki, daha çox məhsul əldə edə bilərdik. Hər halda qısa müddət ərzində ailə büdcəmizə xeyli vəsait gəldi.

Builki hədəflərimiz isə daha böyükdür. Belə ki, 9 qutu barama toxumu götürdük. Əlbəttə təkcə bir ailənin gücü ilə bu qədər barama qurdunu yemləmək çətin olardı. Ona görə də əlavə işçi qüvvəsi də cəlb etdik. Başqa sözlə desək, ailə podratı yaratdıq. Təcrübəli mütəxəssislər, qabaqcıl kümçülər tez-tez qonağımız olur, öz məsləhət və tövsiyələrini verirlər. Ümumi fikir belədir ki, bu il yüksək məhsuldarlıq əldə ediləcəkdir. İlk günlərin nəticələri də bunu təsdiq edir.

Onu da öyrəndik ki, Mirzə Cümşüdov 2016-cı ildə Çin Xalq Respublikasından gətirilmiş 16 min 500 ədəd tut tingi əkib. Ötən il isə qabaqcıl kümçü tut tinglərinin sayını daha da artırıb. Tinglərə yüksək səviyyədə aqrotexniki qulluq edildiyindən bol yem bazası yaradılmışdır. Belə ki, builki barama toxumunu 2016-cı ildə əkdikləri tinglərin yarpağı ilə yemləyiblər.

Geniş asfalt yol əkin sahələrini iki yerə bölür. İri çinar ağaclarından başlanan pambıq sahələri Bəyimsarov kəndinə qədər uzanır. Hər yerdə çıxış eyni səviyyədədir. Dərhal hiss olunur ki, şum, mala və səpin işləri vaxtında və keyfiyyətlə aparılmışdır. Durna qatarı kimi uzanan pambıq kolları adamın üzünə gülür.





Fazil Vəliyevlə də burada iri çinar ağacının kölgəsində görüşdük. Aparılan kultuvasiya işlərinə tamaşa edir, hərdən əlinin işarəsi ilə nəsə deyirdi. Hal-əhval tutduq, işlərin gedişi ilə maraqlandıq. İndiyə kimi görülmüş və görüləcək işlər barədə həvəslə məlumat verdi:

– Bu gün ilk becərməyə başlamışıq – dedi. Havalar hələlik pambıqçılıq üçün çox əlverişli keçir. Ona görə də hər dəqiqənin qədrini bilir, becərmə işlərində gecikməyə yol vermirik. Bizim kəndin sakinlərində pambıqçılığa xüsusi həvəs və maraq var. Təsadüfi deyil ki, bu vacib strateji sahəyə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan sonra ildən-ilə əkin sahələrini genişləndiririk. Məsələn, bizim kollektiv ötən il 58 hektarda "ağ qızıl" yetişdirmiş, 152 ton məhsul təhvil vermişlər. Cari ildə isə pambıq əkini sahələrini 90 hektara çatdırmışıq. Emal müəssisəsi ilə bağladığımız müqaviləyə əsasən maşın, mexanizm, kübrə, yanacaq və s. məsələlərdə heç bir çətinliyimiz yoxdur. İşlərin gedişi göstərir ki, bu il hər hektarın məhsuldarlığını ən azı 35 sentnerə çatdıracağıq.

Son illər Tərtərdə şəkər çuğunduru istehsalında yüksək nəticələr əldə edən fermerlərdən biri də Hüsənli kənd sakini Miri Rzayevdir. Ötən il 20 hektarda əkin aparmış, hər hektarın məhsuldarlığını isə min sentnerə çatdırmışdır. Bu isə rayon üzrə ən yüksək göstəricilərdən biridir. Cari ildə hədəfləri daha böyükdür. Belə ki, əkin sahələrini xeyli artırmışdır.

Kollektiv üzvləri hər hektarın məhsuldarlığı 1400 sentnerə çatdırmaq üçün bütün imkan və səylərini səfərbər etmişlər.

Kənd təsərrüfatının, xüsusilə əkinçiliyin müxtəlif sahələrindən gətirdiyimiz bu misallar bir daha onu göstərir ki, doğrudan da, son illər Tərtər rayonunda aqrar sahənin inkişafı dinamik xarakter alıb. Təkcə belə bir faktı xatırladaq ki, ötən il kənd təsərrüfatı məhsullarının ümumi həcmi 10,3 faiz artaraq 62 milyon manat olmuşdur ki, bunun da 60 milyonu təkcə bitkiçiliyin hesabına formalaşmışdır. Son vaxtlar burada ənənəvi sahələrlə yanaşı, nisbətən yeni, məsələn fındıqçılıq, günəbaxan və s. kimi sahələr sürətlə inkişaf etməyə başlamışdır. Hazırda rayonda 42, 8 hektar fındıq bağı var. Bunun da 19 hektarı son iki ilin payına düşür. Günəbaxan əkini də diqqət mərkəzindədir. Belə ki, cari ildə ötən illə müqayisədə günəbaxan əkini sahələri təxminən iki dəfə artırılmışdır.

Pambıqçılıqda, taxılçılıqda əldə edilmiş uğurlar xüsusilə fərəh doğurur və kənd əməkçilərinin fədakar əməyindən xəbər verir. Əlamətdar cəhət isə ondan ibarətdir ki, son illər əkin sahələri artırılmaqla yanaşı, məhsuldarlıq da yüksəlmişdir. "Sarı kəhraba ustaları" ötən il 9 min 507 hektarda məhsul yetişdirmiş, yığım optimal müddətdə və vaxtında başa çatdırılmış, zəmilərdən 34 min 580 ton taxıl götürülmüşdür. Hər hektarın məhsuldarlığı isə 36,4 sentnerə çatdırılmışdır. Cari ildə isə taxıl əkini sahələri 11 min 783 hektar təşkil edir. Bu gün-sabah arpa biçininə başlanılacaqdır. Zəmilərin hazırkı vəziyyəti göstərir ki, rayon üzrə ümumi taxıl istehsalı ötən ildəkindən xeyli çox olacaqdır.

Pambıqçılıqda isə Tərtər rayonu son illər haqlı olaraq qabaqcıl təcrübə məktəbi hesab olunur. Buranın torpağı münbit, iqlimi pambıqçılıq üçün əlverişlidir. Cəbhə bölgəsində düşmənlə üzbəüz dayanan tərtərlilər yaranmış təhlükəsiz və əlverişli şəraitdən bəhrələnərək yüksək əmək nailiyyətləri əldə edirlər. Ötən il 3 min 123 hektarda pambıq əkilmiş, əvvəlki ilə nisbətən "ağ qızıl" sahələri 3 dəfə artırılmışdır. İl ərzində 8 min 419 ton pambıq tədarük edilmişdir ki, bu da 2016-cı ildəkindən 3,6 dəfə çoxdur. Hər hektarından orta məhsuldarlıq da 2016-cı illə müqayisədə 5 sentner artaraq 27 sentnerə çatdırılmışdır. Pambıq əkini, becərilməsi və yığımı işlərinə 5 minədək insan cəlb edilmiş, onlar yüksək gəlir götürmüşlər.

Fermerlərdən Habil İbrahimov 118 ton məhsul istehsal edərək 67 min manat, Qasım Sadıqov 104 ton məhsul toplayaraq 50 min manat, Müslüm Babışov 91 ton məhsul tədarük edərək 45 min manat, Fazil Vəliyev 57 ton məhsul yığaraq 28 min manat gəlir əldə etmişlər.

Dövlət tərəfindən pambıqçılığın inkişafına göstərilən dəstək bu sahəyə marağı daha da artırmışdır.

Təsadüfi deyildir ki, cari ildə pambıq əkini sahələri 3 min 300 hektara çatdırılmışdır. Yaz-tarla işləri və səpin kampaniyası yüksək aqrotexniki səviyyədə aparılmış, nəticədə hər yerdə normal çıxış alınmışdır. Hazırda tarlalarda ilk becərmə işlərinə başlanılmışdır. Heç şübhəsiz ki, Tərtər pambıqçıları cari ildə də müəyyən etdikləri hədəfi keçəcəklər.

> ***"Görürəm ki, Tərtər rayonu məhsuldarlığa görə birinci yerdədir. Bu, çox gözəl hadisədir…Ona görə hesab edirəm ki, Tərtər zəhmətkeşlərinin təcrübəsi digər bölgələrdə də tətbiq olunmalıdır. Çünki heç də hər bir rayonda məhsuldarlıq sizdə olduğu kimi deyil. Ona görə burada görülən aqrotexniki tədbirlər, suvarma və texnikadan istifadə ilə bağlı təcrübə gərək təhlil edilsin və məhsuldarlığı az olan rayonlara tövsiyə kimi göndərilsin".***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***



Tərtər suvarma suyundan ən çox qıtlıq çəkən bölgələrdən biridir. Bunun səbəbi isə odur ki, əsas su mənbələri "Sərsəng" və "Madagiz" hələ də düşmən əlindədir. Əsl erməni xisləti və namərdliyi bunda da özünü göstərir. Belə ki, erməni tərəfi suyu gecələr açır gündüzlər isə bağlayır. Əksər hallarda isə 2-3 gün tamamilə kəsirlər. Bütün bu çətinliklərə baxmayaraq respublika Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Tərtərdə yerləşən strukturları – subartezian quyularının istismarı və suvarma sistemləri idarələri ona çalışırlar ki, mövcud su mənbələrindən səmərəli istifadə olunsun, gələn suları sahələrə itkisiz çatdırsınlar, ciddi növbəlilik təmin olunsun. Məsələn, subartezian quyularının istismarı idarəsinin balansında olan 495 quyunun 486-sı saz və işlək vəziyyətdədir. Kollektiv 13 min 500 hektar sahənin suvarılmasını təmin edir. 2017-ci ildə rayonun müxtəlif kəndlərində yeni qazılmış 7 artezian quyusu artıq balansa götürülmüş və istismara buraxılmışdır. 2018-ci ildə isə əlavə 13 artezian quyusunun qazılmasına başlanılmışdır. Suvarma sistemləri idarəsi isə 27 min 513 hektarın su təminatı ilə məşğul olur. Əsas su mənbələrinin işğal altında olmasına baxmayaraq, cari ilin ötən 5 ayı ərzində 1300 hektar pambıq sahəsinə bitiş suyu verilmişdir. Bundan başqa, 11 min 535 hektar taxıl sahəsi 2,3 dəfə, 6 min 908 hektar yem bitkiləri 1,2 dəfə, 140 hektar bostan –tərəvəz sahələri 2,4 dəfə və s. suvarılmışdır.



Göründüyü kimi, 2018-ci ildə Tərtərdə kənd təsərrüfatı, xüsusilə əkinçilik sahəsində daha böyük zirvələr fəth etmək üçün bütün imkan və səylər hərəkətə gətirilmiş, əlavə ehtiyat mənbələri işə salınmış, intizam və tələbkarlıq daha da artırılmışdır. Rayonda mövcud olan mənəvi-psixoloji mühit yaradıcı və təşəbbüskar ab-hava belə düşünməyə tam əsas verir ki, tərtərlilər bu il də bir çox sahələrdə, xüsusilə pambıqçılıqda birinciliyi qoruyub saxlamaq əzmindədirlər.

Biz də halal və fədakar zəhmətə söykənən bu nəcib və xeyirxah arzulara qoşuluruq...

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***